**“İnsan alverinə qarşı mübarizə haqqında ? Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə**

AZ ?RBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq, “İnsan alverinə qarşı mübarizə haqqında ? Azərbaycan Respublikasının Qanununu Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinə uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

“İnsan alverinə qarşı mübarizə haqqında ? Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, 8, maddə 694; 2013, 5, maddə 458) aşağıdakı dəyişikliklər edilsin:

1. 20.1-ci maddəyə “tətbiq edilmir ? sözlərindən sonra “, habelə müvafiq icra hakimiyyəti orqanı tərəfindən Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarma haqqında qərar qəbul olunmur ? sözləri əlavə edilsin.

2. 20.2-ci maddədə “Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxarma cinayət təqibi başa çatanadək tətbiq olunmur ? sözləri “cinayət təqibi başa çatanadək Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxarma tətbiq olunmur, habelə müvafiq icra hakimiyyəti orqanı tərəfindən Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarma haqqında qərar qəbul edilmir ? sözləri ilə əvəz edilsin.

3. 20.3-cü maddənin birinci cümləsinə “tətbiq olunmur ? sözlərindən sonra “, habelə müvafiq icra hakimiyyəti orqanı tərəfindən Azərbaycan Respublikasının hüdudlarından kənara çıxarma haqqında qərar qəbul edilmir ? sözləri əlavə edilsin.

4. 20.7-ci maddə ləğv edilsin.

5. 21.3-cü maddədə “etibarsız hesab edilir ? sözləri “ləğv edilir ? sözləri ilə əvəz edilsin.

**İlham ?LİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 17 oktyabr 2014-cü il
1066-IVQD